# Hərb salnaməmizin şanlı səhifəsi:

# Tarixi Zəfərə aparan yolun başlanğıcı



*Qələbə əzmimizi nümayiş etdirən Aprel döyüşlərindən doqquz il ötür*

2016-cı ilin aprel ayında baş vermiş dördgünlük müharibə tarixi Zəfərə aparan yola işıq saldı, Azərbaycan xalqının qəhrəmanlığını nümayiş etdirdi. Horadiz şəhərinin düşməndən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımız sancıldı.

30 illik işğal dövründə Qarabağ münaqişəsinin nizamlanması prosesində bu mühüm məqam xüsusi vurğulanırdı ki, sülh danışıqları səmərə verməyəcəyi təqdirdə hərb yolunun seçilməsi şəksizdir. Təbii ki, bu əminlik ordu quruculuğu istiqamətində görülən işlərə, Silahlı Qüvvələrimizin döyüş ruhunun, qələbə əzminin artırılmasına yönələn addımlara əsaslanırdı.

*(davamı 14-cü səhifədə)*

# Hərb salnaməmizin şanlı səhifəsi: Tarixi Zəfərə aparan yolun başlanğıcı

## Qələbə əzmimizi nümayiş etdirən Aprel döyüşlərindən doqquz il ötür





(əvvəli 1-ci səhifədə)

2016-cı ilin Aprel döyüşləri şanlı Zəfərimizə gedən yolun başlanğıcı, Azərbaycan Ordusunun üzərinə düşən missiyanı şərəflə yerinə yetirmək imkanlarına malik olmasının təqdimatı kimi çağdaş tariximizə düşdü.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribatlar törətmək niyyəti ilə ön xətt mövqelərə və yaşayış məntəqələrinə intensiv artilleriya atəşi ilə hücuma başladı. Aprel döyüşləri 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Ordumuzun bölmələri düşmən hücumunun qarşısını aldı, əks-hücumla düşməni geri çəkilməyə məcbur etdi. Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən bu döyüşlərdə qüdrətli ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini, Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonu istiqamətində işğal altında olan 2000 hektardan çox ərazini işğaldan azad etdi. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qrupları tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Düşmənin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

Aprel döyüşləri uzun illərdən sonra xalqımıza qələbə sevinci yaşatdı. İllərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu. Bu döyüşlər həm də taktiki-kəşfiyyat xarakterli əməliyyat idi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tariximiz adlandırdı: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır".

Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə Böyük Qayıdış prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına xalqımızda dərin inam yaratdı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı. Aprel qələbəsindən sonra 2018-ci mayında Naxçıvan istiqamətində Günnüt əməliyyatı ilə on bir min hektarlıq ərazi azad olundu, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirildi, 2020-ci ildə iyulunda isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, düşmənə sarsıdıcı zərbələr vuruldu.

Ən əsası isə odur ki, Aprel döyüşləri zamanı Xalq-Lider-Ordu birliyinin vəhdətinin şahidi olduq. Bu birlik nəticə etibarı ilə bizə həm Aprel Zəfərini, həm də Vətən müharibəsi zamanı möhtəşəm Qələbəni qazandırdı. Bir daha bəlli oldu ki, Azərbaycan dövləti, onun ordusu qüdrətlidir və istənilən təxribatçı hərəkətlərin qarşısını almaq iqtidarındadır. Ermənistan silahlı qüvvələrinin təxribatçı hərəkətlərinə layiqli cavab verən Azərbaycan Ordusunun döyüş qabiliyyətini müəyyən edən mühüm faktorlardan biri Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin silahlı qüvvələrimizə göstərdiyi hərtərəfli diqqət və qayğıdır. Digər bir məqam isə vətənpərvərlik ruhu ilə bağlıdır. Bu illər ərzində dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözləyən vətən oğulları 44 günlük İkinci Qarabağ müharibəsində göstərdikləri qəhrəmanlıq, şücaət nəticəsində 30 ilin işğalına son qoydular. Böyük əzmkarlıqla düşmənə qarşı mübarizə aparan və ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimiz gənc nəsillər üçün də əsl qəhrəmanlıq nümunəsi oldular. Həmin gənc nəsil 2020-ci ildə tarix yazdı, Aprel döyüşlərində başlanan əməliyyatı uğurla sona çatdırdı.

Aprel döyüşlərində Azərbaycan hərbçilərinin yüksək qabiliyyətli döyüş bacarıqları və uğurları dövlət başçısı tərəfindən çox yüksək qiymətləndirildi. 2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin üç hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü, 7 hərbi qulluqçu "Azərbaycan Bayrağı" ordeni, 1 hərbi qulluqçusu 2-ci dərəcəli və 4 hərbi qulluqçusu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 hərbi qulluqçusu "Vətən uğrunda" medalı, 43 hərbi qulluqçusu "İgidliyə görə" medalı, 45 hərbi qulluqçusu "Hərbi xidmətlərə görə" medalı, 2 hərbi qulluqçusu "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıldı.



Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olmaqla yeni zəfər salnaməsi yazdı. Azad edilmiş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nümayiş etdirildi. Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. Bu Qələbə son 200 illik tariximizin ən böyük Zəfəridir. Zəfər paradındakı çıxışında Prezident İlham Əliyev ordumuzun tarixi Zəfərini yüksək qiymətləndirdi: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

**Mustafa KAMAL,**
**"Respublika".**